# Uydurma erməni soyqırımına dair bəyanat regionda sülhə və sabitliyə təhdid yaradır

## *Müsahibimiz Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Elman Nəsirovdur*

***– Sizcə, ABŞ Prezidentinin saxta “erməni soyqırımı” ifadəsini gündəmə gətirməsi ağır geosiyasi fəsadlara gətirib çıxararmı?***

– Amerika Birləşmiş Ştatlarının 46-ci Prezidenti Cozef Bayden 2021-ci il aprelin 24-də 1915-1923-cü illərdə Türkiyədə yaşanan hadisələrə münasibətdə “soyqırımı” ifadəsini işlətməklə adını əbədi olaraq Ermənistanın ağ yalan üzərində qurulmuş saxta tarixinə həkk etdi. Xatırladaq ki, Ronald Reyqandan sonrakı dönəmdə Cozef Baydenin sələfləri oxşar situasiyada ən pis halda “böyük qırğın” ifadəsini işlətməklə kifayətlənmişlər. Onların bir çoxu seçki öncəsi ermənipərəst bəyanatlarla çıxış etsələr də, prezident seçildikdən sonra fövqəldövlətin qlobal strateji maraqları qarşısında vədlərindən imtina etmək məcburiyyətində qalmışlar. 2008-2016-cı illərdə ABŞ-a rəhbərlik etmiş Barak Obama seçkiqabağı təbliğat kampaniyası dövründə qondarma “erməni soyqırımı”nı tanıyacağını təkcə şifahi deyil, həm də yazılı şəkildə bəyan etsə də, vədini yerinə yetirməyin doğuracağı ağır geosiyasi fəsadları nəzərə alıb, bu addımdan çəkinmişdir.

Cozef Bayden isə ABŞ-ın qlobal strateji maraqlarını dar erməni maraqlarına qurban verdi. Nəticə özünü çox gözlətməmiş, Türkiyədə ABŞ



əleyhinə böyük siyasi və ictimai etiraz dalğasının yaranmasına səbəb olmuşdur. Bu, artıq ağır geosiyasi fəsadların kimi dəyərləndirilməlidir. İlk növbədə, ABŞ-ın Ankaradakı səfiri Devid Satterfild Türkiyə Xarici İşlər Nazirliyinə dəvət edilmiş və ona bildirilmişdir ki, Türkiyə qondarma “erməni soyqırımı” haqqında bəyanatı inkar edir, onu qəbuledilməz sayır və hesab edir ki, bu addım ikitərəfli münasibətlərə tənzimlənməsi çətin olan ziyan vurmuşdur.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cozef Baydenin “soyqırımı” ittihamına cavabı özünü çox gözlətmədi. “Hörmətli Bayden, Minsk qrupu deyilən bir üçlük quruldu. 30 il ərzində bu işğala son qoymadınız. Təəssüf ki, oradakı insanlar, bir milyondan çox azərbaycanlı qardaşlarımız doğma yurdlarından köç etmək məcburiyyətində qaldılar. Bütün o yerlər, o Qarabağ, bütün binalar, hər şey təəssüf ki, yandırıldı, məhv edildi.

Soyqırımı deyirsinizsə, güzgüyə baxmalı və özünüzü qiymətləndirməlisiniz. Hinduları deməyimə ehtiyac yoxdur. Bütün bunlar ortada ikən ayağa qalxaraq Türkiyəyə və türk millətinə soyqırımı damğası vura bilməzsiniz. Baxın, burada on minlərlə dinc sakin qırılarkən, 1,5 milyon azərbaycanlı qardaşımız evlərini tərk etmək məcburiyyətində qaldı”, – deyə Ərdoğan amerikalı həmkarını ikili standartlarda ittiham etdi.

Cənab Ərdoğan Cozef Baydenin son anti-Türkiyə davranışına cavab olaraq, Türkiyə ermənilərinin patriarxı Sahak Maşalyana göndərdiyi məktubda xüsusi olaraq vurğulamışdı: “Tarixçilərin aparması lazım olan mübahisələrin üçüncü ölkələr tərəfindən siyasiləşdirilərək ölkəmizə qarşı müdaxilə vasitəsi halına gətirilməsi kimsəyə kömək etmədi. İnanıram ki, şəxsiyyətimizi yalnız keçmişdə ruhumuzda qalan ağrılar üzərində qurmaq yeni nəsillərə qarşı böyük bir haqsızlıqdır.”

Türkiyənin digər dövlət rəsmiləri də Amerika Birləşmiş Ştatları Prezidenti Cozef Baydenin 1915-ci il hadisələrini “soyqırımı” adlandırmasını kəskin şəkildə pisləmişlər. Həmçinin hakim və müxalif siyasi partiyaların rəhbərləri də növbəti dəfə ümummilli məsələdə birlik və həmrəylik nümayiş etdirərək, Cozef Baydenin “soyqırımı” ifadəsinə münasibətdə kəskin mövqelərini bəyan etmişlər.

Heç şübhəsiz, ABŞ Prezidentinin qondarma “erməni soyqırımı” ilə bağlı səsləndirdiyi qərəzli mövqe Ermənistan cəmiyyətini daha da radikallaşdırmış, revanşistlərə əlavə stimul vermiş, regionda formalaşmaqda olan kövrək əməkdaşlıq və təhlükəsizlik mühitinə təhdid yaratmışdır. Təsadüfi deyildir ki, ABŞ Prezidentinin məlum mövqeyi fonunda Ermənistanda Türkiyə və Azərbaycan bayraqları yandırılmış, hər iki qardaş dövlətin bayraqlarına bükülmüş maniken simvolik olaraq boğazından asılmışdır. Bütün bunlar terrorçuluğun real elementləridir. Analoji hadisələr heç bir vaxt nə Azərbaycanda, nə də Türkiyədə baş verməmişdir. Bütün bunlar bir daha onu göstərir ki, Azərbaycan və Türkiyənin Ermənistanı regional əməkdaşlığa cəlb etmək kimi humanist davranışının qarşılığında məğlub ölkədən siyasi radikalizm, təxribat və terrorçu hərəkətlər nümayiş olunmaqdadır. Rəsmi Vaşinqtonun son davranışı isə bu halda “od üstünə benzin tökmək” effekti yaratmışdır.

***– Həmişə olduğu kimi, bu dəfə də Azərbaycan Türkiyənin yanında olduğunu nümayiş etdirdi...***

– Azərbaycan – Türkiyə birliyi dünyaya nümunədir. Məşhur el məsəlində deyilir: “Yaxşı dost dar gündə tanınar”. Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı, bu baxımdan, dünyanın istənilən ölkəsi üçün örnək ola bilər. Xüsusilə, İkinci Vətən müharibəsində Türkiyənin Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək unudulmazdır. Azərbaycan da hər zaman Türkiyənin yanında olduğunu dəfələrlə sübut etmişdir. Bu baxımdan, təsadüfi deyildir ki, Prezident İlham Əliyev aprelin 24-də Cozef Baydenin Türkiyəyə qarşı nümayiş etdirdiyi ədalətsizliyə dərhal reaksiya vermiş, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək bu qərarı tarixi səhv adlandırmışdır. Dövlətimizin başçısı Azərbaycanın bu qərarı qəbuledilməz hesab etdiyini vurğulamışdır. Söhbət zamanı Prezident İlham Əliyev açıqlamanın regionda yaranmaqda olan əməkdaşlıq meyillərinə zərər vurduğunu bildirmişdir. Dövlətimizin başçısı Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu qeyd etmişdir.

Prezident Rəcəb Tayyib Ərdoğan dəstəyə və ifadə etdiyi mövqeyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirmişdir. O da Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu diqqətə çatdırmışdır.

Aprelin 24-də Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Mustafa Şentop arasında baş tutan telefon danışığı zamanı qardaş ölkə parlamentlərinin spikerləri Amerika Birləşmiş Ştatları Prezidenti Cozef Baydenin qondarma “erməni soyqırımı” ilə əlaqədar verdiyi bəyanatını qınadıqlarını ifadə etmişlər.

Həmin gün Azərbaycanda fəaliyyət göstərən 48 siyasi partiya ABŞ Prezidentinin qondarma “erməni soyqırımı” məsələsi ilə bağlı mövqeyinə dair bəyanat yayaraq Türkiyəyə dəstəyini ifadə etmişdir. Bəyanatda xüsusi olaraq vurğulanır:



“Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar hər zaman qardaş Türkiyənin yanında olduqlarını bildirir və xəstə erməni iddialarına rəğbət bəsləyən ABŞ Prezidentinin qondarma “erməni soyqırımı” məsələsinə dair mövqeyini qətiyyətlə pisləyirlər. Ölkələr və xalqlar arasında dözümsüzlük təlqin edən bu cür yanaşmalar ayrı-ayrı regionların və ümumilikdə bəşəriyyətin dayanıqlı sülhpərvər inkişafına təhdid törədir.”

***– NATO-da hərbi güc baxımından birinci və ikinci yerləri paylaşan ABŞ və Türkiyə arasında kəskin qarşıdurmanın formalaşması Cənubi Qafqaz regionunda kövrək təhlükəsizlik və əməkdaşlıq mühiti üçün hansı təhdidlər yarada bilər?***

– Bu məsələ, həmçinin cavablarının tapılması olduqca vacib olan bir sıra digər suallar ətrafında da təhlillər aparmağa vadar edir. Bəs prezidentliyinin 100-cü günü ərəfəsində Cozef Baydeni Türkiyə kimi strateji əhəmiyyətli müttəfiqinə münasibətdə möhtərəm Prezidentimiz demişkən, belə tarixi səhv addım atmağa məcbur edən hansı amillərdir? Vaşinqton – Ankara münasibətlərində yaşanan dərin böhran hansı geosiyasi nəticələri labüd edə bilər? Və ya ABŞ və Türkiyə arasında kəskin qarşıdurma yarana bilərmi?

Əvvəla, onu qeyd edək ki, Cozef Bayden bütün siyasi karyerası dövründə ermənipərəst mövqeyi və antitürk davranışı ilə seçilən siyasətçi imicinə malik olmuşdur. O, senator olarkən ABŞ Konqresində “erməni dostları” qrupunun ən fəal üzvlərindən biri olmuş, məhz bu ölkənin güclü erməni lobbisi və diasporunun dəstəyi ilə Senatın Xarici Əlaqələr Komitəsinin sədri vəzifəsinədək yüksəlmişdir. Erməni lobbisi tərəfindən göstərilən “etimadı” doğrultmağı öz siyasi karyerasının “məhək daşı”na çevirən Cozef Baydenin bu yolda ilk nəzərəçarpacaq “xidməti” 1992-ci il oktyabrın 24-də Konqres tərəfindən Azərbaycana qarşı bədnam “907-ci maddə”nin qəbul edilməsi oldu. Dövlət səviyyəsində Azərbaycana qarşı iqtisadi yardım qadağasının özündə ehtiva etməklə ikitərəfli münasibətlərin “qara ləkə”si olan bu qanunvericilik təşəbbüsünün həmmüəlliflərindən biri də məhz Cozef Bayden olmuşdur.

Məhz onun xüsusi cənfəşanlığı sayəsində 2019-cu il oktyabrın 29-da ABŞ Konqresinin Nümayəndələr Palatası (burada çoxluq Demokratlar Partiyasına məxsus idi) 296 saylı qətnamə qəbul edərək 1915-1923-cü illərdə Osmanlı Türkiyəsində baş vermiş hadisələri “erməni soyqırımı” kimi tövsif etmişdir. Hər iki partiyadan olan 435 konqresmenin 405-i bu sənədin lehinə səs vermişdir. Cəmi 11 konqresmen əleyhinə mövqe bildirmişdir. Bundan sonra anoloji nəticəni Senatda da əldə etmək istəyən Cozef Bayden və onun tərəfdarlarının cəhdlərinin qarşısı 3 dəfə yuxarı palatada alınsa da, yalnız 2019-cu il dekabrın 12-də dördüncü cəhddə Senat qondarma “erməni soyqırımı”nı tanıyan 150 saylı qətnamə qəbul etmişdir. Bu bədnam qətnamənin həmmüəllifləri demokrat senator Robert Menendes və respublikaçı senator Tom Kruzdur. Hər iki senator Konqresin “erməni dostları” qrupunun üzvləridir. Qətnamənin qəbulundan sonra ilk müsahisbəsində Robert Menendesin səsləndirdiyi fikir uzağa gedən hədəflərinin olduğunu bir daha təsdiqləmişdir: “Zaman yetişmişdir ki, qanunvericilərə prezident də qoşulsun”. Prezident ali vəzifəsinə onların ermənipərəstlik üzrə əqidə yoldaşları Cozef Bayden seçildikdən sonra “prezidentin qanunvericilərə qoşulması” üçün cəmi 94 gün vaxt lazım oldu.

***– Deməli, Cozef Bayden hələ Senatın Xarici Əlaqələr Komitəsinin sədri vəzifəsində olarkən qondarma “erməni soyqırımı”nın gündəmə gətirilməsinə hazırlaşırmış?***

– Elədir ki var. Göründüyü kimi, Konqresin hər iki palatası artıq 2019-cu ildə qondarma “erməni soyqırımı”nı tanıyan siyasi qətnamələr qəbul etmiş, eyni zamanda, indiyədək ABŞ-ın 50 ştatının 49-u analoji addımlar atmışdır. Qeyd edilən reallıqlar fonunda Prezident Cozef Baydenin cari il aprein 24-də 1915-1923-cü illərdə Osmanlı Türkiyəsində baş verən hadisələrə münasibətdə “soyqırımı” ifadəsi işlədəcəyi proqnozlaşdırılan idi. Aprelin 23-də prezidentlər Cozef Bayden və Rəcəb Tayyib Ərdoğan arasında baş tutmuş telefon danışığından sonra nüfuzlu ABŞ nəşri “The Wall Street Journal” etibarlı mənbələrdən aldığı məlumata əsasən, Cozef Baydenin 2020-ci ilin oktyabr ayında, prezident seçkilərinin finiş mərhələsində verdiyi sözə əməl edərək, qondarma “erməni soyqırımı”nı tanıyacağı ilə bağlı sensasiyalı məlumat yaydı. Ağ evin mətbuat katibi Cen Psaki mətbuatın tirajladığı informasiyanı nə təsdiq, nə də təkzib etdi. Hər kəsi aprelin 24-nü gözləməyə dəvət etdi. Bu vəziyyətdə Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun reaksiyası özünü çox gözlətmədi. O. “Haberturk”ə müsahibəsində rəsmi Vaşinqtonu ehtiyatlı davranışa dəvət etdi. Xəbərdarlıq etdi ki, belə bir addımın atılması Türkiyə–ABŞ münasibətlərinə ciddi zərər vura bilər. Bütün bunlara baxmayaraq, reallıq ondan ibarətdir ki, ABŞ Prezidenti Ankara–Vaşinqton münasibətləri üçün “qırmızı xətt” olan bir məsələdə olduqca radikal bir addıma imza atdı.

Düzdür, həm ABŞ Konqresinin hər iki palatasının qəbul etdiyi məlum qətnamələr, həm də Prezident Cozef Baydenin “soyqırımı” ifadəsi siyasi xarakter daşıyır, simvolik məna kəsb edir və heç bir hüquqi gücə malik deyildir. Buna baxmayaraq, ABŞ-ın NATO-nun cənub qanadında həlledici amil olan müttəfiqi – Türkiyə ilə münasibətləri böyük sual altına qoyması bir sıra digər məsələlər ətrafında da ciddi təhlil aparılmasını vacib edir. Bu, ilk növbədə, Cozef Bayden Administrasiyasının Türkiyəyə münasibətdə dualist yanaşmasının mövcudluğu versiyasını aktual edir. ABŞ-ın yeni prezidenti və onun komandasının üzvlərinin rəsmi bəyanatları, habelə bu ölkənin mətbu orqanlarında yer alan bir sıra məlumatların təhlili belə qənaətə gəlməyə əsas verir.

Cozef Bayden Administrasiyası 106 il əvvəl Osmanlı Türkiyəsində yaşanan hadisələri tarixi deyil, məhz siyasi mülahizələrdən çıxış edərək “soyqırımı” kimi qiymət verə bilir, lakin dünyanın gözü qarşısında ermənilərin törətdikləri “Xocalı soyqırımı”na münasibətdə özlərini kar, kor və lal kimi aparmaqda davam edir. Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələrinin Gəncə, Bərdə, Tərtər, Naftalan və digər şəhərlərə qadağan olunmuş raketlər və kasetli bombalar ataraq mülki əhaliyə qarşı müharibə cinayətinə imza atsa da, ABŞ yenidən ya müəmmalı susqunluq nümayiş etdirmiş, ya da açıq şəkildə Ermənistana dəstəyini bildirmişdir. Ağ ev həmin dəstəyi BMT TŞ-da Azərbaycan əleyhinə qətnamənin qəbul olunması yolu ilə ifadə etməyə səy göstərmişdir. Yalnız bu qurumda təmsil olunan Qoşulmama Hərəkatının (Azərbaycan bu təşkilata sədrlik edir) bir sıra ölkələrinin Azərbaycana dəstək mövqeyi sayəsində anti-Azərbaycan xarakterli sənəd qəbul olunmamışdır. Bütün bu sadalananlar virtual deyil, gerçək dünyamızın reallıqlarıdır və bir daha sübut edir ki, beynəlxalq hüquq işləmir. Əsas səbəbi də elə onun keşiyində durmalı olan böyük dövlətlərin, xüsusilə də fövqəldövlət olan ABŞ-ın ikili standartlar siyasətidir. Bu yerdə böyük alim Albert Eynşteynin keçən əsrin 50-ci illərində səsləndirdiyi “beynəlxalq qanunlar sanki yalnız beynəlxalq qanunlar külliyatında mövcuddur” fikri müasir dünyamızda daha böyük aktuallıq kəsb etməkdədir. Nə qədər acı olsa da, bu həqiqətdir.

Beləliklə, Cozef Bayden Administrasiyasının Türkiyə əleyhinə siyasətinin səbəb və motivləri ilə bağlı yuxarıda apardığımız təhlil və analizlər bir sıra nəticələr çıxarmağa və müvafiq tövsiyələr irəli sürməyə əsas verir. Bütün bu və digər reallıqları nəzərə aldıqda birmənalı olaraq söyləmək olar ki, Cozef Bayden administrasiyasının qlobal ABŞ maraqlarının ziddinə olaraq, Türkiyə kimi nəhəng strateji müttəfiqi ilə münasibətləri dar erməni maraqları naminə korlamaq siyasəti ağır geosiyasi fəlakətləri labüd edə bilər. Bu, ABŞ-a lazımdırmı? Zənnimizcə, cavab birdir: qətiyyən yox! Güman edirik ki, cari ilin iyun ayında NATO-nun Brüssel sammiti çərçivəsində baş tutması gözlənilən Bayden – Ərdoğan görüşü cavabını gözləyən bütün sualların müzakirəsi və “strateji barışıq” üçün unikal şans olacaqdır.

***Müsahibəni qələmə aldı:***
***Əliqismət BƏDƏLOV, “Xalq qəzeti”***